# THE IDEA OF NATIONALISM AND RELIGIOUS UNITY IN INDIAN PHILOSOPHY IN THE TWENTIETH CENTURY

**Ulviyya Aghabayova**[1]

**UDC:** 141.132(540)"19":323.15(540):2-67(540)
**LBC:** 87.3ya2:87.3(5Ind)-3
**HoS:** 75
**DOI:** 10.33864/2790-0037.2025.v6.i3.14-26

**Keywords:**

Indian philosophy, Nationalism, Religious unity, Gandhi, Nehru, Tagore, Satyagraha

## ABSTRACT

One of the main characteristics of Eastern philosophy is adherence to tradition and the preservation of the national spirit. Indian philosophical schools, having passed through the filter of centuries, have retained their originality and, in many cases, continued to develop in accordance with the demands of the time. In India, philosophical thought is primarily characterized by the syncretic content of religion and philosophy. However, the philosophical doctrines formed in the modern era have presented ideas that differ from one another. The worldview of the leaders of the national liberation movement, which gained wide momentum in India in the early twentieth century, is characterized by the idea of nationalism and religious unity. Great Indian thinkers such as M. Iqbal, R. Tagore, M. K. Gandhi, and J. Nehru struggled for the peaceful coexistence of people of different faiths for the sake of the country's future development. The patriotic feeling of the prominent poet Rabindranath Tagore made him one of the main leaders in the struggle against British colonialism and violence. He understood the path of struggle as the enlightenment of the youth. Mahatma Gandhi put forward the principle of Satyagraha and was a thinker imbued with the spirit of nationalism. The basis of this principle was to ensure that every individual, regardless of religion or nationality, could live peacefully in India and to put an end to all forms of violence. Gandhi's main desire was to light the way toward the country's bright future. The foundation of Jawaharlal Nehru's ideological platform was the demand to abandon religious rules that led people into inertia and to arm themselves with science. Thus, the main goal of the aforementioned thinkers was to determine the ways for the Indian people to advance toward a bright future under national and religious unity.

[1] PhD in Philosophy, Associate Professor,
Baku State University; Baku, Azerbaijan
E-mail: ulviyyaagabayova@bsu.edu.az
https://orcid.org/0009-0008-9805-5099

**To cite this article:** Aghabayova, U. [2025]. The Idea of Nationalism and Religious Unity in Indian Philosophy in the Twentieth Century. *History of Science journal*, *6*(3), pp.14-26.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i3.14-26

***Article history:***
*Received: 25.01.2025*
*Accepted: 01.09.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# İYİRMİNCİ YÜZİLLİKDƏ HİND FƏLSƏFƏSİNDƏ MİLLİLİK VƏ DİNİ VƏHDƏT İDEYASI

**Ülviyyə Ağabəyova**[1]

**UOT:** 141.132(540)"19":323.15(540):2-67(540)
**KBT:** 87.3ya2:87.3(5Hind)-3
**HoS:** 75
**DOI:** 10.33864/2790-0037.2025.v6.i3.14-26

**Açar sözlər:**

Hind fəlsəfəsi,
Millilik,
Dini vəhdət,
Qandi,
Nehru,
Taqor,
Satyaqraxa

**ANNOTASİYA**

Şərq fəlsəfəsinin əsas xüsusiyyətlərindən biri ənənəçiliyə sadiq qalmaq və milli ruhu qoruyub saxlamaqdan ibarətdir. Əsrlərin süzgəcindən keçən hind fəlsəfi məktəbləri özünün orijinallığını qoruyub saxlamış, çox halda dövrün tələblərinə uyğun şəkildə öz inkişafına davam etmişdir. Hindistanda fəlsəfi təfəkkür, əsas etibarilə din və fəlsəfənin sinkretik məzmunu ilə səciyyələnir. Lakin ən yeni dövrdə formalaşmış hind fəlsəfi təlimləri bir-birindən fərqlənən ideyalar sərgiləmişdir. İyirminci yüzilliyin əvvəllərində Hindistanda geniş vüsət almış milli-azadlıq hərəkatının liderlərinin dünyagörüşü millilik və dini vəhdət ideyası ilə xarakterizə olunur. M. İqbal, R. Taqor, M. K. Qandi, C. Nehru kimi dahi hind mütəfəkkirləri ölkənin gələcək inkişafı naminə müxtəlif din mənsublarının sülh içərisində birgəyaşayışı üçün mübarizə aparmışlar. Görkəmli şair Rabindranat Taqorun vətənpərvərlik hissi onu ingilis müstəmləkəçiliyinə və zorakılığına qarşı mübarizədə əsas liderlərdən birinə çevrirmişdir. O, mübarizə yolunu gənclərin maarifləndirilməsi kimi başa düşürdü. Mahatma Qandi "satyaqraxa" prinsipini irəli sürmüş və millilik ruhu ilə alışıb yanan bir mütəfəkkirdir. Onun bu prinsipinin əsasında dinindən, millətindən asılı olmayaraq hər bir fərdin Hindistanda dinc yaşamasını təmin etmək, hər cür zorakılığa son qoymaq idi. Qandinin əsas arzusu ölkənin parlaq gələcəyə gedən yolda işıq yandırmaqdan ibarət olmuşdur. Cəvahirləl Nehrunun ideya platformasının əsasında insanları ətalətə sürükləyən dini qaydalardan əl çəkib, elmlə silahlanmaq tələbi dayanırdı. Belə ki, adı çəkilən mütəfəkkirlərin əsas məqsədi milli və dini birlik altında hind xalqının işıqlı gələcəyə irəliləməsi yollarını müəyyən etməkdən ibarət olmuşdur.

[1] Fəlsəfə üzrə fəlsəfə doktoru, Dosent,
Bakı Dövlət Universiteti; Bakı, Azərbaycan
E-mail: ulviyyaagabayova@bsu.edu.az
https://orcid.org/0009-0008-9805-5099
**Məqaləyə istinad:** Ağabəyova, Ü. [2025]. İyirminci Yüzillikdə Hind Fəlsəfəsində Millilik və Dini Vəhdət İdeyası. *History of Science jurnalı*, 6(3), səh.14-26.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i3.14-26

***Məqalənin tarixçəsi:***
*Məqalə redaksiyaya daxil olmuşdur: 25.01.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 03.02.2025*
*Çapa qəbul edilmişdir: 01.09.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# ИДЕЯ НАЦИОНАЛИЗМА И РЕЛИГИОЗНОГО ЕДИНСТВА В ИНДИЙСКОЙ ФИЛОСОФИИ XX ВЕКА

**Ульвия Агабекова**[1]

**УДК:** 141.132(540)"19":323.15(540):2-67(540)
**ББК:** 87.3я2:87.3(5Инд)-3
**HoS:** 75
**DOI:** 10.33864/2790-0037.2025.v6.i3.14-26

**Ключевые слова:**

Индийская философия, Национализм, Религиозное единство, Ганди, Неру, Тагор, Сатьяграха

## АННОТАЦИЯ

Одной из основных характеристик восточной философии является приверженность традициям и сохранение национального духа. Индийские философские школы, прошедшие сквозь века, сохранили свою оригинальность и во многих случаях продолжали развиваться в соответствии с требованиями времени. В Индии философская мысль в основном характеризуется синкретическим содержанием религии и философии. Однако философские учения, сформировавшиеся в новейший период, представляли идеи, различающиеся между собой. Мировоззрение лидеров национально-освободительного движения, получившего широкое развитие в Индии в начале XX века, характеризуется идеей национализма и религиозного единства. Великие индийские мыслители, такие как М. Икбал, Р. Тагор, М. К. Ганди и Д. Неру, боролись за мирное сосуществование представителей различных религий во имя будущего развития страны. Патриотическое чувство выдающегося поэта Рабиндраната Тагора сделало его одним из главных лидеров борьбы против британского колониализма и насилия. Он понимал путь борьбы как просвещение молодежи. Махатма Ганди выдвинул принцип Сатьяграха и был мыслителем, проникнутым духом национализма. В основе этого принципа лежало обеспечение мирной жизни каждого человека в Индии, независимо от его религии и национальности, и прекращение всякого насилия. Основным желанием Ганди было зажечь свет на пути страны к светлому будущему. В основе идейной платформы Джавахарлала Неру стояло требование отказаться от религиозных правил, ввергающих людей в инерцию, и вооружиться наукой. Таким образом, главной целью названных мыслителей было определение путей продвижения индийского народа к светлому будущему под знаменем национального и религиозного единства.

[1] Кандидат философских наук, доцент,
Бакинский государственный университет, Баку, Азербайджан
E-mail: ulviyyaagabayova@bsu.edu.az
https://orcid.org/0009-0008-9805-5099

**Цитировать статью:** Агабекова, У. [2025]. Идея национализма и религиозного единства в индийской философии XX века. *Журнал History of Science*, *6*(3), с.14-26.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i3.14-26

***История статьи:***
*Статья поступила в редакцию: 25.01.2025*
*Отправлена на доработку: 03.02.2025*
*Принята для печати: 01.09.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Ən yeni dövr hind fəlsəfəsinin ümumi cəhətlərindən danışarkən, ilk öncə onun daxili heterogen (müxtəlif) və hədsiz ziddiyyətli xüsusiyyətlərə malik olduğunu görürük. İyirminci yüzillikdə Hindistanda formalaşmış fəlsəfi sistemlər və təlimlər özünün nəzəri məzmununa, sosial təbiətinə və ideya istiqamətinə görə bir-birindən əsaslı şəkildə fərqlənir. Hind fəlsəfəsi özündə idealizm, materializm, teizm, ateizm, realizm, aqnostisizm kimi bir-birinə zidd görüşləri ehtiva etsə də, milli orijinallığını qoruyub saxlamışdır. Hind təfəkkürü çox hallarda din və fəlsəfənin sintezi kimi xarakterizə edilir ki, bunun kökləri qədim hind fəlsəfi məktəblərinə gedib çıxır (əlbəttə ki, çarvak-lokayatları çıxmaq şərti ilə). Görkəmli ictimai-siyasi xadim, Hindistanda milli-azadlıq hərəkatının lideri sayılan Cəvahirləl Nehru qeyd edirdi ki, "Hindistanda fəlsəfə bir qrup məhdud filosofların və ya alimlərin mirası deyil. Fəlsəfə böyük kütlənin dininin mühüm elementidir. Din sadə və bəsit formada kütlənin qanına hopmuş və fəlsəfi görüşü formalaşdırmışdır". İdealizmin əsasını təşkil edən adi şüur - din Hindistanda sosial və müstəmləkə zülmünün müəyyənedicisi kimi çıxış edirdi. Fəlsəfə və adi şüurun - dinin spesifik əlaqəsi müasir hind fəlsəfəsinin səciyyəvi xüsusiyyətini xarakterizə edir. Bu, ölkədə hinduizm dininin geniş yayılması ilə əlaqədar idi. İdeoloji proseslər milli-azadlıq hərəkatının başlanması dövründə fəlsəfi dünyagörüşlə, əsasən də idealist baxışlarla səciyyələnirdi. Milli ideologiyada, eləcə də yeni və ən yeni dövrdə hind ictimai fikrində və geniş xalq kütlələrinin şüurunda materialist və idealis baxışlar sosial əhəmiyyətini dəyişir. Hind milli-azadlıq hərəkatının sosial-siyasi baxış bucağında fərqli yanaşmalar meydana çıxır: radikallar, milli burjuaziyanın mütərəqqi xadimləri, kütlələrin antiimperialist çıxışlarında onlara rəhbərlik edən idealist baxışları dəstəkləyən rəhbərlər bir-birinə zidd ideyalarla görüntüyə gəlirlər.

Millilik və dini vəhdət ideyası çağdaş hind dünyagörüşündə mühüm əhəmiyyət kəsb edir. Bu ideyadan çıxış edən hind mütəfəkkirləri dini və milli qarşıdurmanın hər bir mərhələdə qarşısının alınmasına çalışır və Hindistanın gələcək həyatının dinc, əmin-amanlıq şəraitində keçməsinə xidmət edir [Литман, 1985, s.28-31]. Bu baxımdan mövzuya müraciət etməyimiz mühüm aktuallıq kəsb edir.

İyirminci yüzilliyin əvvəllərində gərgin siyasi mühit – inqilablar, milli qarşıdurmalar, digər tərəfdən millətçilik hisslərinin artması, yerli münaqişələr öz təsirini nəinki mədəni, iqtisadi sahədə, həmçinin fəlsəfədə də göstərirdi. Müasir hind fəlsəfəsində müxtəlif istiqamətlər, fərqli baxışlar, bir-birinə zidd nəzəriyyələr yaranır. Hindistanın sosial-siyasi və ictimai sferasında tərəqqiyə nail olmaq məqsədi ilə, ingilislərin müstəmləkə zülmündən yaxa qurtarmaq arzusu ilə hind mütəfəkkirləri, siyasi xadimlər milli və dini vəhdət ideyası ilə çıxış edərək, ölkədə baş verən bir çox ziddiyyətlərin qarşısını almağa çalışmışlar.

## 2.Hind fəlsəfəsinin mərhələləri

XX əsr hind fəlsəfəsi özündən əvvəlki mərhələlərdə mövcud olmuş fəlsəfi görüşlərdən fərqlənsə də, yeni dövrün əvvəllərində (XIX əsrin ilk onillikləri nəzərdə tutulur) milli hərəkatın əsas nümayəndəsi Ram Mohan Rayın (1772-1833) fəaliyyəti dövründən başlayaraq inkişaf etmiş və formalaşmışdır. Maarifçi Ram Mohan Ray və bir qədər sonra Svami Vivekananda (1863-1902) ictimai-siyasi və fəlsəfi fikrin inkişafında mühüm rol oynamışlar.

Müasir hind fəlsəfəsinin formalaşmasında Rabindranat Taqorun (1861-1941), Mohandas Karamçand Qandinin (1869/1948, sonralar Mahatma Qandi adlandırıldı - Ü. A), Aurobindo Qhoşun (1872-1950), Məhəmməd İqbalın (1877-1938), Ramana Maharşinin (1879-1950), Krişnaçandra Bhattaçariyanın (1875-1949), Sarvepalli Radxakrişnanın (1888-1975) müstəsna xidmətləri olmuşdur. 1925-ci ildə Rabindranat Taqor və Sarvepalli Radxakrişnanın təşəbbüsü ilə ölkə filosoflarının ümumhind forumu hesab olunan fəlsəfə konqresinin keçirilməsi müasir hind fəlsəfəsinin meydana gəlməsinə və inkişafına səbəb oldu. Bu, Hindistanın elmi və mədəni həyatında mühüm hadisə idi [Литман, 1985, s.17].

Yeni dövrdə olduğu kimi, ən yeni dövrdə də yeni ideya istiqamətləri meydana gəlir ki, bunlardan ən mühümü millətçilik ideyası idi. Millətçilik mövqeyindən çıxış edən əsas cərəyan nümayəndələri ənənəçiliyə daha çox üstünlük verirdilər. Onlar qədim hind fəlsəfəsini müasir dövrə uyğunlaşdıraraq vedantizmin inkişafında müsbət nailiyyətlər qazana bildilər. Məsələn, bu dövrdə hinduizmə əsaslanan advayta - vedanta təlimi geniş rəğbət qazanmışdır.

Ortodoksal məktəblər olan vedanta, yoqa, sankhya, vayşeşika, nyaya yarandığı gündən həm müstəqil şəkildə, həm də hakim mövqe tutan hinduizm dininin korrelyativ (bir-birindən asılı olan) elementi kimi çıxış edir. Hinduizmin ideya əsası bu gün də hind dünyagörüşünə və mənəvi həyatına təsir göstərən vedantada öz əksini tapmışdır. Vedanta fəlsəfəsinin əsasını insan problemi təşkil edir. Vedantada şəxsiyyət problemi etik-ontoloji cəhətdən araşdırılır, fərdin “xilası”, “insanın dövrü şəkildə yenidən doğulmasından azad olması”, “şəxsiyyətin tamamilə dəyişməsi və bütün növ əzabların bitməsi” məsələləri şərh edilir.

XIX əsr və XX əsrin birinci yarısında neovedantizmin ən böyük nümayəndələri olan S.Vivekananda, A.Qhoş, M.Qandi tərəfindən vedantanın əsas nəzəri müddəaları, əsasən də insanın Mütləq Həqiqətlə birləşmək cəhdi ideyası şərh edilir. Vedantistlər yalnız antropoloji problemləri deyil, həmçinin hind cəmiyyətinin sosial-siyasi cəhətdən inkişafında insanın rolu haqqında nəzəriyyəni, ən yeni dövrdə müstəmləkəçiliyə qarşı mübarizədə ideya-nəzəri metodları işləyib hazırlayırlar.

Bu dövrdə vedanta fəlsəfəsi ölkənin fəlsəfi həyatında mühüm rol oynamışdır. Vedanta ardıcılları iki qola ayrılır: birinci istiqamətin nümayəndələri insanın mövcud problemini ənənəvi vedantada axtarır; ikinci istiqamətin nümayəndələri isə şəxsiyyətin yeni modelinin formalaşdırılmasına çalışırlar [Степанянц, 1985, s.85-86].

Aurobindo Qhoş, sonralar Mahatma Qandi təsdiq edirdilər ki, dəyişikliklərin baş verməsində Tanrının köməyi böyükdür. Qandi Aurobindo Qhoşun mühakimələrini qəbul edərək qeyd edir ki, Tanrı dünyaya başlanğıc vermiş, varlıq və qüvvə kimi hər şeydə mövcuddur, dünyanın işinə daim müdaxilə edir [Степанянц, 2001, s.133].

M.Qandi “həqiqət” və caynizmin etik təliminin əsas ideyası olan “ahimsa” (“zor göstərməmək”) prinsipləri əsasında özünün yeni proqramını işləyib hazırladı. Qandi hər bir insanda bəşəriyyətə sevgi hissini formalaşdırmaq arzusunda idi [Степанянц, 2001, s.136].

Hind fəlsəfəsinin inkişafına milli ənənələrlə yanaşı, Qərb ictimai- fəlsəfi fikri böyük təsir göstərmiıdir. Ona görə də ən yeni dövrdə hind fəlsəfi fikrində daha çox mübahisə doğuran məsələlərdən biri Şərq və Qərb fəlsəfi görüşlərinin vahid kontekstdən çıxış etməsinin mümkün olub-olmaması məsələsi idi.

Bu dövrdə hind mütəfəkkirləri iki ideya cəbhəsinə ayrılmışdılar:

– birinci qrup nümayəndələri hesab edirdilər ki, bəşəriyyətin sağlam düşüncəyə sahib olmağını istəyiriksə, bu məqsədə çatmaqda Şərq və Qərb mədəniyyəti vəhdət halında çıxış etməyə borcludur;
– ikinci qrup alimlər isə hesab edirdilər ki, Şərq dünyagörüşü dövrün tələblərinə cavab verən olmalı və müasir şəkildə inkişaf etməlidir. Çünki Qərb mədəniyyəti fəlsəfi-ideloji baxımdan Şərqin inkişafında ən böyük maneədir. Bütün sahələrdə tərəqqiyə nail olmaq istəyiriksə, qərb əngəlini kənara atmalıyıq.

Qabaqcıl hind mütəfəkkirləri hesab edirdilər ki, istənilən yad təsirləri milli dəyərlərdən uzaq saxlamaq gərəkdir. Hindistanda keçirilən beynəlxalq konfranslar, bu problemin həlli ilə bağlı keçirilən müzakirələr hind fəlsəfi fikrinin inkişafında böyük rol oynamışdır.

1920-1930-cu illərdə Hindistanda neopozitivizm, neotomizm, ekzistensializm cərəyanları yayılsa da, hind filosoflarının rəğbətini qazana bilmədi. Müstəqillik əldə etdikdən sonra həmin fəlsəfi istiqamətlər hind filosofları tərəfindən təkzib edilməyə başlayır. Hind mütəfəkkirləri hesab edirdilər ki, bir çox dəyərləri Hindistan Avropadan

deyil, Avropa Hindistandan mənimsəməlidir. Eyni zamanda, belə bir şüar səsləndirilirdi: "Şərq mənəviyyata, Qərb isə maddiyata söykənir" [Литман, 1985, s.43-47].

Hindistanda marksizmin yayılması fəlsəfəyə öz təsirini göstərmişdir. Narayana Krişnan Hindistanın üç inkişaf mərhələsini qeyd edirdi:

1. 1918-1935-ci illər Mahatma Qandinin başladığı hind milli-azadlıq hərəkatının geniş vüsət aldığı dövr;
2. 1935-1947-ci illər milli-azadlıq hərəkatının antiimperialist demokratik hərəkata çevrilməsi və ikinci dünya müharibəsindən sonra ölkənin müstəqillik əldə etdiyi dövr;
3. 1947-ci ildən günümüzə qədər olan dövr [Литман, 1985, s.17].

İyirminci yüzilliyin əvvəllərində islahatçılıq istiqaməti yayılır. Bu istiqamətin əsas nümayəndələrindən biri Məhəmməd İqbal dövrünün böyük mütəfəkkiri kimi tanınır.

**3.Məhəmməd İqbalın islahatçılıq istiqaməti**

Hindistanın Pəncab vilayətində Sialkot şəhərində müsəlman ailəsində dünyaya gələn Məhəmməd İqbal (1877-1939) din islahatçısı, görkəmli şair və böyük mütəfəkkirdir (bəzi mənbələrdə M.İqbalın doğum tarixi 1873 və ya 1877 kimi göstərilir).

Məhəmməd İqbal Pakistan dövlətinin müjdəçisi və qurucusu hesab edilir. Lahorda kolleci bitirdikdən sonra M.İqbal təhsilini İngiltərədə və Almaniyada davam etdirmişdir. O, 1930-cu illərdə Hindistan ərazisində müsəlman dövləti yaratmaq ideyasını irəli sürmüşdür [Мак-Грил, 1998, s.110].

İlk təhsilini doğma vətənində almış, ərəb, fars, ingilis dillərinə yiyələnmiş, sonralar Avropada təhsil almış, Qərb mədəniyyəti ilə yaxından tanış olmuş, Avropa fəlsəfəsini, əsasən də Hegel, Kant, Nitşe dünyagörüşünü mənimsəmişdir. O, yalnız Şərqin teologiya, mistisizm və fəlsəfəsini deyil, həm də Qərbin fəlsəfi dəyərlərinin dərin bilicisi olmuşdur.

İslamın gücünü zəiflətməyə çalışan və islam dininə zidd mövqedə duranlara qarşı mübarizə aparan M.İqbal bədii - fəlsəfi əsərlərində islam dinini əsaslandırmağa çalışmışdır. O, müsəlman mədəniyyətini təbliğ etmiş, modernist fikirlərində islamın orijinal klassik formasına üstünlük vermişdir. Mütəfəkkir islam mənsublarının mənəvi xilasını dinin sosial-siyasi və mənəvi cəhətdən inkişafı yolunda görürdü [Şükürov, 2005, s.587].

M.İqbal Şərq və Qərb ədəbiyyatını, incəsənətini öyrənsə də, onun bədii, fəlsəfi yaradıcılığı islam dininə əsaslanır. Müasir dövrdə mütəfəkkirlərin qarşısında duran mühüm məsələ sosial-siyasi, mənəvi-əxlaqi sahədə inkişafın yeni həlli yollarını axtarib tapmaq idi. Filosof dünyada baş verən hadisələri izləyir, islam prinsipləri əsasında "modernləşmə" və "yenidənqurma" ideyasını qəbul edir və bu missiyanı həyata keçirməyə çalışırdı [Литман, 1985, s.101].

Əsas əsərləri "Sonsuz rəmzlər", "Əsrari-xuda", "Cavidnamə", "İslamda dini fikrin yenidən inşası" və s. ibarətdir.

İslamda "yenidənqurma" prinsipini irəli sürən M.İqbal, bunu ümumbəşəri problem kimi dəyərləndirir, müsəlman Şərqi xalqlarının milli oyanışına və sosial azadlıq əldə etməsinə ümid bəsləyirdi. 1923-cü ildə dərc olunmuş "İslamın yüksəlişi" poemasında "islamın yenidən doğmasını" bəşəriyyətin yeni başlanğıcı kimi şərh edən M.İqbal dinin islahatlar yolu ilə inkişafı məsələsini irəli sürürdü.

Görkəmli ingilis şərqşünası Reynold Alleyn Nikolson haqlı olaraq qeyd edirdi ki, qərb təhsilinə, avropa ədəbi - fəlsəfəsinin təsirinə baxmayaraq, İqbal "müsəlman kimi fikirləşir və müsəlman kimi hiss edir". O, dini entuziasdır (bütün qüvvəsi ilə, ruh yüksəkliyi ilə çalışan adamdır).

M.İqbalın fəlsəfi sistemi onun sosial-islahatçı görüşləri ilə çulğalaşır. Mütəfəkkirin əsas məqsədi Hindistanda müsəlmanların fəal rol oynadığı antiimperialist mübarizəni yüksəltmək idi. Bu baxımdan onun yaradıcılığı gələcəyə yönəlmişdi:

"Mən - sabahkı günün şairinin səsiyəm, Mənim əsrim mənim dərin ideyalarımı başa düşmür" - deyə şair vurğulayırdı [Литман, 1985, s.102-103].

Məhəmməd İqbalın fəlsəfi sistemi üç əsas ideya ilə səciyyələnir:

– İslam digər dini sistemlərə nisbətdə üstünlük təşkil edir;
– Son beş əsrdə müsəlman fikri durğunluq keçirir;
– "İnancın rasionallaşdırılması", elmin və dinin harmoniyasını əldə etmək istiqamətində islamın "yenidənqurma" ideyasını bəyan etmək [Литман, 1985, s.107].

Hind fəlsəfə tarixçisi V.S.Naravane qeyd edirdi ki, İqbalın fəlsəfəsi valyuntarist (bütün varlığın əsasını iradə təşkil etdiyini iddia edən idealist fəlsəfi cərəyan ) xarakter daşıyır. İqbalın fəlsəfi sisteminin nüvəsini "xudi" konsepsiyası təşkil edir. İlk öncə "xudi" konsepsiyası fars dilində yazılmış "Əsrari-xudi" ("Şəxsiyyətin sirləri") poemasında poetik formada təqdim edilmişdir. Filosof "xudi" konsepsiyasında müsəlman fəlsəfəsi ilə qərb ictimai fikrini, eyni zamanda C.Vivekanandanın, C.Abhedanandanın, Ramana Maharşinin vedantist ideyalarını birləşdirməyə çalışmışdır. İqbal "Əsrari-xudi" poemasında "xudi" konsepsiyasının ontoloji tezisini irəli sürür və göstərirdi ki, kainatın əsasında "Mən" dayanır; bütün fərdlərin həyat quruluşu "Mən"in möhkəmlənməsindən asılıdır. Vedanta fəlsəfəsinə əsasən, Allah insanda təcəssüm edir, "Mütləq Mən" və ya "Mütləq Eqo" kimi çıxış edir [Литман, 1985, s.109-110].

İyirminci yüzillikdə islamın əsasını təşkil edən Allah, insan, insanın mənəvi kamilləşməsi məsələlərinin dövrün tələblərinə uyğun yeni tərzdə şərh edilməsi tələbi ortaya çıxmışdır. Mühüm cəhət ortodoksal (teoloji) islamın mövqelərinin güclənməsi idi. Bu problemin həlli üçün görkəmli müsəlman şair, filosof, dini islahatçı və ictimai xadim Məhəmməd İqbalın ideyalarına müraciət etmək kifayətdir.

Kainatın sirlərini öyrənmək üçün şəxsiyyətin mahiyyətini öyrənmək lazımdır. Bütün fərdlərin fəlsəfəsi, psixoloji strukturu ümumi "mən"in möhkəmləndirilməsindən asılıdır. İqbalın fəlsəfəsinin əsasında insan fakroru dayanır. O, bildirirdi ki, Allah özünü insanda əks etdirir və birinci "Mütləq Mən" kimi çıxış edir. Lakin insan və Allah heç də bir-birinə zidd qüvvələr kimi qarşı-qarşıya dayanmır. İnsan yaradıcı enerjiyə malikdir [Литман, 1985, s.109].

Məhəmməd İqbal islamla elm arasında əlaqə yaratmağa çalışaraq özünün ontologiyasının atomistik təlimini irəli sürmüşdü. Əşyaların atom quruluşuna malik olduğunu qəbul etməklə yanaşı bildirirdi ki, ruh özü də atomların xüsusi birləşməsinin nəticəsidir [Литман, 1985, s.114].

Xodi fəlsəfəsinin əsasını kamil insan konsepsiyası təşkil edir. O, kamil insanın formalaşmasının üç mərhələdən keçdiyini göstərir: nizam-intizam, özünə nəzarət və əxlaqi kamillik. İdeal "xudi"nin, yəni "kamil insan"ın formalaşmasında mühüm faktor sevgidir. M.İqbal bu ideyanı sufizmdən əxz edərək, onu müasir dövrün tələblərinə uyğunlaşdırmağa çalışmışdır. İqbal fəlsəfəsində "kamil insan" obrazı aşağıdakılardan ibarətdir:

– O, sosial fəal şəxsiyyətdir;
– O, ədalətli və mərhəmətlidir;
– O, Allahın silahdaşıdır, onunla birgə dünyanın yaradıcısıdır [Литман, 1985, s.120].

Böyük mütəfəkkir ümumbəşəri problemlərin həllində "islamda yenidənqurma" prinsipini irəli sürür və bunu milli dirçəlişin və müsəlman Şərqi xalqlarının bərabərliyinin əsası kimi qəbul edirdi. İqbalın fəlsəfi sistemi Hindistanda antiimperialist mübarizənin genişlənməsində mühüm rol oynamışdı. Bu mübarizədə çoxsaylı müsəlmanlar da fəal iştirak edirdi. Ümumiyyətlə, hind milli-azadlıq hərəkatında həm müsəlmanlar, həm də qeyri-müsəlmanlar iştirak edirdi.

İqbal Hindistan müsəlmanlarını milli və dini bir toplum kimi qəbul edirdi. O, qeyd edirdi ki, Qurani-Kərim müsəlmanların sosial mənşəyini və sosial ədalət ruhunu formalaşdırmışdır [Замов, 2017, s.110].

Məhəmməd İqbalın xudi fəlsəfəsi dünya fəlsəfi fikir tarixində özünəməxsus yer tutur. Hindistanın gələcəyi - azadlığı naminə, sosial-siyasi, mədəni sahədə tərəqqisi üçün çalışan İqbal bir sıra ideyalar irəli sürürdü:

– ölkədə dini müxtəliflik aradan qalxmalıdır;
– həm hindular, həm də müsəlmanlar öz milli keyfiyyətlərini qorumalıdırlar.

Hindistanda "millətçilik"meyllərinin geniş yayıldığı bir dövrdə İqbal milli

və dini vəhdət ideyası ilə çıxış edirdi. Onun ən böyük arzusu vahid hind millətinin formalaşmasından ibarət idi. M.İqbal uzun illər davam edən hind - müsəlman qarşıdurmasına son qoyaraq, hinduizm və islam mənsublarının birgə sülh içərisində yaşamağın mümkün olduğuna inanırdı. Hər iki din mənsublarının əmin-amanlıq içərisində yaşaması üçün siyasi - fəlsəfi və sosial nəzəriyyələrin yaranmasına böyük ehtiyac duyulur [Мухаммад Икбал, 2002, s.13].

Azadlıq uğrunda mübarizədə müsəlmanların işıqlı gələcəyə inamı İqbalın bədii yaradıcılığında öz əksini tapmışdır.

Məhəmməd İqbal panteizmə və mistisizmə meyl etmiş, sufilik mövqeyində olmuşdur. "Əsrari xudi" əsərində sufizmin təsiri duyulmaqdadır. Mütəfəkkirin sufi dünyagörüşü əvvəlcə atasının sufi baxışları, daha sonra isə mistik - şair Cəlaləddin Ruminin ideyaları əsasında formalaşmışdır.

Filosofun fəlsəfi sisteminin əsas prinsiplərindən biri sufi mistikasına yaradıcı - tənqidi yanaşmadan ibarət olmuşdur. O, göstərirdi ki, Həqiqət mistik yolla dərk edilir. Lakin filosof mistik dərk etmədə müasir elmin rasional ruhu ilə uyğun olan metodlardan istifadə edir [Литман, 1985, s.108].

Ənənəçilik mövqeyində dayanan mütəfəkkirlərdən biri də Rabindranat Taqor olmuşdur. Hindistanın görkəmli şairi, yazıçı, ictimai xadim, filosof, hind fəlsəfi şüurunun inkişafında mühüm rol oynamış Rabindranat Taqor 1861-ci ildə Benqaliyanın Kəlküttə şəhərində dünyaya gəlmişdir. Ziyalı və maarifpərvər ailədən olan Rabindranat Taqorun babası Dvarkanat Taqor böyük maarifçi, qərb təmayüllü maarifçi Ram Mohan Rayla eyni dövrü paylaşmış və onun silahdaşı olmuşdur. Atası Debendranat Taqor isə ənənəçilik mövqeyindən çıxış etmiş, R.M.Rayın "qərbçilik" siyasətini tənqid etmişdir. Atası və babası həm dini – islahatçı hərəkatın fəal iştirakçıları, həm də Ram Mohan Rayın yaratmış olduğu Brahmo Samac təşkilatının üzvləri olmuşlar.

Nobel mükafatı qazanmış Rabindranat Taqor hind mədəniyyətinə tövhələr vermiş, üç mindən artıq şeir, nəğmə, pyes, roman yazmışdır.

Rabindranat Taqor böyük rəssam kimi də şöhrət qazanmış və onun bu istedadı dünyagörüşünün formalaşmasına heç də mane olmamış, əksinə daha da təkmilləşmiş zəkaya malik olmasında yardımçı rolunu oynamışdır. Bədii yaradıcılığı sırasında həm poeziya, dramaturgiya, publisistika, həm də fəlsəfi dünyagörüşünə dair əsərlər yer almışdır.

Cəvahirləl Nehru Taqor haqqında yazır: "Onun uzun həyatı, yaradıcılıq fəaliyyəti iki nəsli, iki dövrü – yeni və ən yeni dövrü əhatə edir. Taqor siyasi xadim olmasa da, hind xalqının taleyi onu daim narahat etmişdir. O, hindlilərin, əsasən də böyüməkdə olan gənc nəslin şüuruna təsir edə bilmişdir". R.Taqor deyirdi ki, hind xalqının bədbəxtliyinin səbəbi cahillikdə, elmsizlikdə və mədəni gerilikdədir. Hind xalqının rifahı yalnız və yalnız maariflənməkdə və elm öyrənməsindədir [Литман, 1985, s.160].

Şairin əsas əsərləri bunlardır: "Gitancali", "Sadxana", "Şəxsi", "Dağ", "İnsanın dini", "Tərki dünya", "Qurban mərasimi", "Qırmızı məxmər güllər", "Boykuntanın qədim əlyazısı", "Fəlakət" və s.

O, 1941-ci ildə Kəlküttədə dünyasını dəyişmişdir. R.Taqor ABŞ-a, bir çox avropa ölkələrinə, Çinə və Yaponiyaya səfər etmiş, Şərq mədəniyyətinə üstünlük vermişdir. Ən böyük arzusu Hindistanın böyük universitetlərində hind, çin və müsəlman Şərqi mədəniyyətini tədris və təbliğ etməkdən ibarət olmuşdur.

Taqor ali təhsil ala bilməsə də, ilk təhsilini Şərq seminariyasında almış, "ev universiteti" ona çox şey öyrətmişdir. Taqorların evində tez-tez yazıçılar, rəssamlar, aktyorlar, din və siyasi xadimlər toplaşardı. Taqor əvvəllər həmin ev yığıncaqlarında dinləyici kimi çıxış edir, sonralar isə diskusiyalarda incəsənət, fəlsəfə və siyasətlə bağlı çıxışlar edərdi. O özünün "Rəssamın dini" adlı avtobioqrafik məqaləsində göstərir ki, "mən elə bir dövrdə doğulmuşam ki, hind tarixində üç mühüm hərəkat baş vermişdir: Ram Mohan Rayla başlayan dini-islahatçılıq hərəkatı, Bonki Çondro Çottopadxayyanın başçılıq etdiyi hind bədii ədəbiyyatında "teologizmə və cansızlığa" qarşı hərəkat, qeyri-şərq xalqlarından olan adamların insanları "yaxşı" və "pis"ə ayıran alçaldıcı hərəkətlərinə qarşı milli hərəkat.

"Brahmo-Samac" cəmiyyətinin üzvi olan Taqorun dünyagörüşü dini – islahatçılıq hərəkatının, milli-azadlıq hərəkatının təsiri altında formalaşmışdır. O, qədim hind dini mənbələri olan Vedalardan və Upanişadlardan təsirlənmişdir. Mütəfəkkir Lamarkın, Darvinin, Qekslinin əsərlərini öyrənmiş və onların təsiri nəticəsində məktəb dərsliyi yazmışdır. Taqorun əsas məqsədi gəncləri müasir qərb elminin nailiyyətləri ilə tanış etmək idi. Taqorun yaradıcılığında milli azadlıq və müstəqil Hindistan haqqında ideyaları qızıl xətlə yazılmışdı. XIX əsrin 90 – cı illərində yazmış olduğu əsərlərində xalqa sevgisini, zülmkarlara isə nifrətini ifadə etmişdir. Taqorun əsas istəyi hindularla müsəlmanları bir araya gətirib ingilis müstəmləkəçilərinə qarşı birgə mübarizə aparmaqdan ibarət olmuşdur. O, hesab edirdi ki, hindularla müsəlmanlar birləşsələr bir güc kimi müstəmləkəçiliyə qalib gələ bilərlər [Бродов, 1967, s.252-253].

Tədricən "Brahmo-Samac" cəmiyyətindən ayrılan Rabindranat Taqor 1895-ci ildə "Şadhona" adlı jurnalının nəşrinə başlayır ki, həmin jurnalda "İngilislər və hindlilər", "İngilisin çəkinməsi" adlı məqalələri çapdan çıxır. Həmin məqalələrdə mütəfəkkir göstərir ki, ingilis müstəmləkəçiliyinə məhz hindlilərlə müsəlmanlar birləşərək qalib gələ bilərlər. Bu dövrdə neohinduizm ardıcılları milli şüurun artması və millətçilik ideyasının formalaşması, eyni zamanda milli mədəniyyətin, milli dünyagörüşün inkişafı uğrunda səy göstərirdilər. Bununla belə, neohinduizm ardıcılları əvvəlki əsrlərdə mövcud olmuş ənənələrin saxlanmasının tərəfdarı kimi çıxış etdikləri üçün Rabindranat onların ideya əleyhidarına çevrilir və əsərlərində onları tənqid atəşinə tutur [Tarop, 2011, s.11].

Taqor Hindistanın xilas yolunu islahatçılıqda və kütlənin maarifləndirilməsində görür və göstərirdi ki, ingilislər Hindistana öz maddi maraqları üçün yerləşmişlər. Rabindranat Taqor uşaqların öz ana dillərində təhsil almalarının və milli mədəniyyətə sahib çıxmalarının arzusunda olmuşdur.

Vətənpərvərlik hissi ilə alışıb-yanan Rabindranat Svadeşi hərəkatının rəhbərlərindən biri kimi ingilis ağalığına, zülmünə, kolonial rejiminə qarşı mübarizə aparır və bildirir ki, ingilislər Hindistana bizə kömək etmək üçün deyil, var-dövlətimizi aparmaq üçün gəlmişlər. Taqorun ideyalarının məhdud cəhəti ondan ibarət idi ki, o, mübarizəni zorakılıq kimi başa düşür və Svadeşi hərəkatından uzaqlaşır. O, mübarizənin gəncləri maarifləndirmə yolu ilə aparılmasının tərəfdarı kimi çıxış edir. Sonralar Taqor mübarizəsini əsərlərində davam etdirir.

Milli – azadlıq hərəkatının yüksəlişi dövründə (1905–1908-ci illərdə) Taqor iqtisadi azadlıq uğrunda hərəkatda və Svarac (siyasi azadlıq uğurunda hərəkat) hərəkatında iştirak edir, "Bhandar" adlı ictimai-siyasi jurnalını çap etdirir. Həmin jurnalda müstəmləkəçilərin zülmünə qarşı etirazını bildirir.

Dövrünün böyük hind mütəfəkkiri Mahatma Qandi millətçilik ruhu ilə seçilmiş və Hindistanın azadlığı uğrunda mübarizlərdən olmuşdur.

Mahatma ("Böyük ruh") adını almış Mohandas Karamçand Qandi XX yüzilliyin görkəmli siyasi liderlərindən biridir. Qandinin dini, fəlsəfi və siyasi görüşləri bir-biri ilə sıx bağlı olmuşdur. O, müxtəlif dinləri, o cümlədən hinduizmi qəbul etmiş və onların əsasında öz fəlsəfəsini formalaşdırmışdır.

Qandi 1869-cu ildə Porbandarda dünyaya gəlmişdir. Valideynlərinin vişnuizm dininə sitayiş etməsinə baxmayaraq, atasının dostları müxtəlif din mənsublarından – hindular, caynistlər, müsəlmanlar, zərdüştilər idi. Ona görə də Qandi hələ uşaq vaxtlarından fərqli dinlərə sitayiş edən insanların əhatəsində böyümüşdür. O, 1948-ci ildə vəfat etmişdir.

Qandi "Həqiqətlərlə bağlı mənim təcrübələrimin tarixi", "Qandinin seçilmiş əsərləri", "Cənubi Afrikada satyaqraxa" adlı əsərlərin müəllifidir.

İyirminci yüzilliyin birinci rübündən Mahatma Qandi milli-azadlıq hərəkatına qoşulmuş və hərəkatın qabaqcıl liderlərindən sayılmışdır. Həmin illərdə hind millətçiliyi iki istiqamətə - mötədil və ekstremist istiqamətlərə ayrılır. Belə şəraitdə hind milli-azadlıq hərəkatının güclənməsi üçün yeni proqramlar hazırlanması işi Qandi tərəfindən gerçəkləşdirilir. Onun nəzəriyyəsinin əsasında "satyaqraxa" ("zor işlətməmək") prinsipi dayanırdı. İngilis imperializminə qarşı mübarizədə "satyaqraxa" prinsipindən istifadə edilirdi. Zorakılığa qarşı hərəkatın əsas xüsusiyyəti xalq kütlələrinə dayaq olmaq, onların açıq siyasi mübarizə yürütməsinə kömək etməkdən ibarət idi [Мартышин, 1970, s.49].

Mahatma Qandi peşəkar filosof olmasa da, hind xalqının gündəlik sadə həyatını mənalandırmağa çalışmışdır. Dövrünün böyük mütəfəkkiri hesab olunan Qandi hesab edirdi ki, din və siyasət qırılmaz vəhdət təşkil edir. Dini prinsiplərə əsaslanmayan siyasət uğur qazana bilməz. Çünki Mahatma Qandi özü din vasitəsilə siyasi xadimə çevrilmişdir. Qandinin qatı dindarlığı, hinduizmə sədaqəti, "sanata- hindu"ya ("sadiq hindu") çevrilməsi cəhdi onun dünyagörüşünün formalaşmasına ciddi təsir etmişdi. O, dində elə forma və məzmun axtarırdı ki, ondan siyasi görüşlərində istifadə etsin və bu da Hindistanda geniş xalq kütlələrinin düşüncəsinə təsir etmiş olsun. Qandi dindən siyasi məqsədlər üçün istifadə edərək onu praktik güc kimi təfsir edirdi. Qandinin fəlsəfi problemlərinin əsasında din dayanırdı: "din ali meyar və nəzəri ideyaların əsasıdır" [Литман, 1985, s.183].

Mahatma Qandinin fəlsəfi görüşlərinin formalaşmasında buddizmin, caynizmin, hinduizmin, xristianlığın böyük təsiri duyulmaqdadır. Qandi qeyd edirdi ki, din onu siyasətçi etmişdir. Hinduizmin tərəfdarı kimi o, vedaları, upanişadları, puranaları müqəddəs kitab hesab edir və göstərirdi ki, həmin kitablarda əxlaq kodeksləri öz əksini tapmışdır. Din islahatçısı kimi Qandi hinduizmə yeni ruh verməyə, ölmüş ənənələri atmağa çalışırdı. Mütəfəkkir göstərirdi ki, hinduizm canlı orqanizmdir, o, çiçəklənmə və tənəzzül dövrlərini keçirir. Qandi qədim dini mətnləri idrak və etika vasitəsilə izah etməyə və bu dini yeni məzmunla tamamlamağa çalışırdı [Мартышин, 1970, s.74-75].

Ram Mohan Raydan başlayaraq, XIX əsr mütəfəkkirləri "köhnə dinin müasirləşdirilməsi" fikrini irəli sürmüş və Mahatma Qandinin sələfləri olmuşlar.

Qandi kasta quruluşunu məqbul saymış, dini müqəddəsliyin toxunulmazlığını qəbul etmiş, qadınların zülm edilməsinə qarşı çıxmışdır. Mütəfəkkir göstərirdi ki, əsl din ayinlər forması deyil, əxlaq qaydasıdır. Əxlaq qaydası gündəlik həyat fəaliyyətində özünü göstərir və iqtisadiyyata, siyasətə, ictimai həyata təsir edir. Qandiyə görə, din təsiredici olmalıdır. O, müəyyən zamandan sonra dinə yeni məzmun gətirərək, onu kütlələrin siyasi tərbiyə üsuluna çevirməyi bacarmışdı. Mütəfəkkir din vasitəsilə sadə kəndli şüurunu milli azadlıq və sosial ədalət ideyaları ilə zənginləşdirmişdir [Мартышин, 1970, s.76-77].

Qandi qeyd edirdi ki, hinduizm təriqətlərə ayrılmır. Bu din islamda, xristianlıqda, buddizmdə, zərdüştilikdə ən yaxşı olanları özündə birləşdirir. O, müxtəlif dinlərə etiqad edən insanları hinduizm dini altında birləşdirməyə çalışırdı. Bunun səbəbi azadlıq hərəkatının gücünü artıqmaq idi.

Mahatma Qandinin fəlsəfi görüşlərinin əsasında Tanrı-Həqiqət problemi dayanır. Onun obyektiv idealist təliminə görə, tanrı İlkin Reallıqdır, insan iradəsindən asılı olmayaraq obyektiv surətdə mövcuddur. Tanrı şəxsiyyət deyil, mövcudatın əbədi əsasıdır. Tanrı saf şüur, həyatın mahiyyəti, həqiqət və sevgi, etika və əxlaqdir. Qandi deyirdi ki, mən Tanrıya inandığım üçün Ondan danışıram və hər zaman hər yerdə deyəcəyəm ki, Tanrı var, olmuşdur

və həmişə olacaq [Литман, 1985, s.184]. Qandi qeyd edirdi ki, Tanrı hər şeyə qadir və hər şeyə nüfuz edən ruhdur. Tanrı yaradıcı, idarə edici, kainatın hakimidir [Мартышин, 1970, s.83].

Qandi deyirdi ki, Tanrı həqiqətdir. Sonralar o, bu ideyanı yeni düsturla əvəz etdi: "Həqiqət Tanrıdır". Həqiqət və zor işlətməmək prinsipi Tanrının sinonimləridir. Hər şeyin kökü Həqiqətdə yerləşir. Bu Həqiqət zor işlətməməkdən ibarətdir. Ona görə də Qandi həqiqətlə siyasəti birləşdirməyə çalışırdı. Yeni düstur – "Həqiqət Tanrıdır" düsturu sonralar qandizm hərəkatının ardıcılları tərəfindən qəbul edilmişdi. Mütəfəkkir öz dinini nifrətdən, fanatizmdən və bütün məhdudiyyətlərdən qoruyaraq, onu əxlaqla eyniləşdirirdi. O, hinduizmi bütün milli çərçivələrdən azad edir və onu etik prinsiplərlə birləşdirirdi. Qandi deyirdi: mənim üçün dinsiz siyasət mövcud deyil. Din cəmiyyəti parçalamamalı, əksinə birləşdirməlidir [Мартышин, 1970, s.79-81].

Mütəfəkkir hindularla müsəlmanları birləşdirməyə çalışır və bu məsələdə "ahimsa" prinsipinə söykənirdi. Bu prinsipdən çıxış edərək Qandi insanlar arasındakı ədavəti və zorakılığı rədd edirdi. Ahimsanın mühüm obyekti sayılan insan cəsarət və cəsurluğu ilə seçilməli, hərəkətlərində son dərəcə diqqətli olmalıdır. İgidlik nümayiş etdirən insan ahimsanı qəbul edə bilər. Ahimsa, digər fəlsəfi prinsiplər kimi Qandi siyasətinin ideya əsasıdır. Mahatma Qandi deyirdi ki, ahimsa mənim həyatımın nəfəsidir. Ahimsanın əsas atributu sevgidir. Bu isə, yəni "sevgi" Qandi fəlsəfəsinin mühüm kateqoriyası hesab edilir. Qandi təsdiq edirdi ki, "sevgi qanunu" obyektiv xarakter daşıyır və insanın iradəsindən və şüurundan asılı olmayaraq fəaliyyət göstərir. İnsanların qarşılıqlı əlaqəsinin əsasında sevgi dayanmalı, nifrət isə həyatdan tamamilə yox olmalıdır. Müsəlmanlarla hindular arasındakı əlaqənin kökündə sevgi olmalıdır ki, onlar birləşərək birlikdə azadlığa nail ola bilsinlər [Литман, 1985, s.190-191].

Mahatma Qandinin əsas ideyaları:

– Həqiqət Tanrıdır;
– İnsanın başlıca məqsədi – özünü drk etməsidir;
– Sevgi həyatın mühüm dəyəridir;
– Satyaqraxa ədalətsizliklə mübarizə aparmağın yeganə düzgün yoludur;
– Bütün əsas dinlər bərabərdir və eyni həqiqətdir;
– Siyasət mənəvi dəyərlərdən ayrılmazdır;
– Bütün insanlar qardaşdır, hamısı eyni ruha malikdir [Мак-Грил, 1998, s.335].

Yuxarıda qeyd etdiyimiz kimi, iyirminci yüzillikdə hind fəlsəfəsi ziddiyyətli inkişaf mərhələsi keçmiş və bu özünü nəinki filosof-mütəfəkkirlərin, həm də ictimai-siyasi xadimlərin dünyagörüşündə göstərməkdədir. Məhəmməd İqbal, Rabindranat Taqor, Mohandas Karamçand Qandi və onlarla mütəfəkkir ingilis kolonial rejiminin dəf edilməsinə, Hindistanın xilas yoluna və gələcək işıqlı sabaha aparacaq bir həyatın reallaşmasına çalışmış və ideya mübarizəsində öndərlərdən olmuşlar. Hind xalqının böyük oğlu, dünya miqyaslı ictimai - siyasi xadim Pandit (Alim) Nehru kimi tanınan Cəvahirləl Nehrunu da bu siyahıya aid etmək olduqca vacib məqamlardandır.

Cəvahirləl Nehru hind milli-azadlıq hərəkatının lideri olmuşdur. Hindistan müstəqillik əldə etdikdən sonra təqribən iki on illiyə qədər baş nazir vəzifəsində çalışmışdır.

Nehrunun çoxşaxəli biliyi, ensiklopedik zəkası və dərin fəlsəfi təfəkkürü insan təkamülünə xidmət edən böyük ədəbi irs yaratmasına kömək etmişdir. Hind ictimai fikrinin inkişafında Nehrunun misilsiz xidmətləri olmuşdur. Onun dünyagörüşünün formalaşmasında Qərb, əsasən də ingilis təfəkkürünün, hind mənəvi ənənələrin və ideoloji cərəyanların təsiri duyulmaqdadır. Upanişad fəlsəfəsinə marağı onu vedantizmə qədər aparıb çıxarmışdır. Upanişadlarda və vedanta fəlsəfəsində Nehrunun diqqətini çəkən əsas məsələ dialektik və rasionalist ideyalar olmuşdur. Qədim hind dini-fəsəfi ənənələri onun

dünyagörüşünün formalaşmasında mühüm rol oynamış və sonralar milli-azadlıq hərəkatının ideya mübarizəsinə təsir etmişdir [Литман, 1985, s.314-315].

Cəvahirləl Nehrunun siyasi baxışlarının kökündə hind ənənələri, din haqqında fikirləri və qərb mədəni dəyərləri dayanırdı. Mahatma Qandidən təsirlənərək qərb mədəniyyəti ilə hind ənənələrinin sintezinə çalışmışdır.

O, siyasətlə dini birləşdirməyə cəhd edir və göstərirdi ki, biz bu gün dini mübarizə deyil, sinfi mübarizə aparırıq. Hehru qeyd edirdi ki, din kütlələrdə kor-koranə inamdan, itaətkarlıqdan başqa heç nəyə xidmət etmir. Əksinə, insanların mənəvi inkişafını geriləndir. Rəsmi din bir mənalı olaraq, zaman keçdikcə öz maraqlarına xidmət edən təşkilata çevrilir ki, bu da inkişafın, tərəqqinin qarşısını alır. C.Nehru din vasitəsilə insanları buxovlayan , ətalətə çağıran qaydalara qarşı çıxırdı. Mütəfəkkir dini yalnız sosial-siyasi aspektdən deyil, həm də ideya-fəlsəfi mövqedən tənqid edirdi. Açıq təfəkkür, rasionalizm, intellekt uğrunda apardığı mübarizəsinin əsasında C.Nehrunun dini ehkamlardan əl çəkib elmə söykənmək tələbi dayanırdı [Литман, 1985, s.320-321].

Elmə böyük əhəmiyyət verən C.Nehru hesab edirdi ki, elm ümumfəlsəfi dəyərə malikdir. Elm müasir insanın dünyagörüşünün formalaşmasında müstəsna rol oynayır. Elm, Nehrunun dediyi kimi, müasirliyin mühüm faktorudur. Elm insan həyatında inqilab yaratmışdır. Din çətin və sərt ehkamlar və qanunlar əsasında həqiqətə çatmağı təbliğ edirsə, elm, əksinə, bu ehkamları təkzib edir, insanın ağlına üstünlük verir [Литман, 1985, s.322].

**4.Nəticə**

Tədqiqat işində müasir hind fəlsəfəsinin səciyyəvi xüsusiyyətləri və Hindistanın dahi mütəfəkkirləri və ictimai-siyasi xadimlərinin fəlsəfi görüşləri nəzərdən keçirilmişdir. Həmin dövrdə müxtəlif ideya cərəyanları yaranmış və bu da öz növbəsində Hindistanın ictimai-siyasi sferasına təsirini göstərmişdir. Baxmayaraq ki, hind cəmiyyətində müxtəlif mədəniyyətlər, müxtəlif dinlər mövcuddur və onlar bir-birinə zidd mövqedə dayanırlar, onları birləşdirən ortaq cəhət idealist mahiyyət daşımasıdır.

Müasir hind fəlsəfəsində hər bir fəlsəfi sistem özünəxas xüsusiyyəti ilə seçilir. Hər bir hind mütəfəkkiri fərqli düşüncələri ilə, ideyaları ilə görüntəyə gəlsələr də, onları birləşdirən ümumi cəhət dinindən, fəlsəfi mövqeyindən asılı olmayaraq Hindistanı xoş gələcəyə aparacaq yolda birlikdə mübarizədən ibarətdir. Bunun üçün bütün din mənsubları bir araya gəlməli, millətçilik ruhunda olmalı və Hindistanı azad ölkəyə çevirməlidirlər.

Müsəlman şairi, din islahatçısı Məhəmməd İqbal Hindistanın gələcəyi naminə milli və dini vəhdət ideyası ilə çıxış edərək yüz illər boyu eyni ərazini paylaşan hindli müsəlmanların hindularla qarşıdurmasız yaşamasının mümkün olduğunu deyirdi. R.Taqorun ən böyük arzusu hindularla müsəlmanların birləşərək ingilis müstəmləkəçilərinə qarşı birgə mübarizə aparmasından ibarət olmuşdur. M. K. Qandi müxtəlif dinlərə etiqad edən insanları hinduizm dini altında birləşdirməyə çalışırdı.

M. İqbal, R. Taqor, M. K. Qandi, C. Nehru və başqaları kimi dahi mükəfəkkirlər "zor işlətməmək" prinsipindən çıxış edərək qələmin gücü ilə mübarizə aparırdılar. Bunun nəticəsi kimi 1947-ci ildə Hindistan öz müstəqilliyini əldə edə bilmişdi.

**5.REFERENCES**

**1.** Tagore, R. (2011). *Selected works*. Baku: Sharq-Qarb, 928 p. (in Azerbaijani)
**2.** Shukurov, A. (2005). *Eastern philosophy and philosophers*. Baku: Abilov, Zeynalov ve oghullar, 668 p. (in Azerbaijani)
**3.** Brodov, V. V. (1967). *Modern Indian philosophy*. Moscow: Moscow University Press, 284 p. (in Russian)
**4.** Vanderhill, E. (1996). *Mystics of the 20th century: Encyclopedia* (D. Gayduk, Trans. from English). Moscow: MIF: Lokid, 522 p. (in Russian)
**5.** Mac-Greal, Y. (Ed.). (1998). *Great thinkers of the East*. Moscow: Kron-Press, 656 p. (in Russian)

6. Zamov, E. A. (2017). *Social thought of Eastern countries: Textbook*. Yekaterinburg: Ural Federal University, 150 p. (in Russian)
7. Litman, A. D. (1985). *Contemporary Indian philosophy*. Moscow: Mysl, 399 p. (in Russian)
8. Martyshin, O. V. (1970). *Political views of Mohandas Karamchand Gandhi*. Moscow: Nauka, 299 p. (in Russian)
9. Mahatma Gandhi. (2011). *Pedagogy of nonviolence* (V. A. Vasilenko, Trans., Preface and Compilation). Kirovograd, 300 p. (in Russian)
10. Muhammad Iqbal. (2002). *Reconstruction of religious thought in Islam*. Moscow: Sadra, 200 p. (in Russian)
11. Nehru, J. (1989). *The discovery of India* (2 vols., V. V. Isakovich & I. S. Klivanskaya, Trans. from English). Moscow: Politizdat, 464 p. (in Russian)
12. Komarov, E., Lamshukov, V., & Polonskaya, L. (Eds.). (1987). *The discovery of India: Philosophical and aesthetic views in 20th century India*. Moscow: Khudozhestvennaya Literatura, 611 p. (in Russian)
13. Stepanyants, M. T. (Ed.). (2001). *Universals of Eastern cultures*. Moscow: Eastern Literature, 431 p. (in Russian)
14. Stepanyants, M. T. (Ed.). (1985). *Philosophy and religion in the Foreign East: 20th century*. Moscow: Nauka, 272 p. (in Russian)

## ƏDƏBİYYAT

1. Тагор, Р. (2011). *Seçilmiş əsərləri*. Bakı: Şərq-Qərb, 928 s.
2. Şükürov, A. (2005). *Şərq fəlsəfəsi və filosofları*. Bakı: Əbilov, Zeynalov və oğullar, 668 s.
3. Бродов, В. В. (1967). *Индийская философия нового времени*. Москва: Издательство Московского Университета, 284 с.
4. Вандерхилл, Э. (1996). *Мистики XX века. Энциклопедия* (Д. Гайдук, Пер. с англ.). Москва: МИФ: Локид, 522 с.
5. Мак-Грил, Я. (Ред.). (1998). *Великие мыслители Востока*. Москва: Крон-Пресс, 656 с.
6. Замов, Э. А. (2017). *Общественная мысль стран Востока: учебное пособие*. Екатеринбург: Уральский федеральный университет, 150 с.
7. Литман, А. Д. (1985). *Современная индийская философия*. Москва: Мысль, 399 с.
8. Мартышин, О. В. (1970). *Политические взгляды Мохандаса Карамчанда Ганди*. Москва: Наука, 299 с.
9. Махатма Ганди. (2011). *Педагогика ненасилия* (В. А. Василенко, Пер. с англ., предисл. и сост.). Кировоград, 300 с.
10. Мухаммад Икбал. (2002). *Реконструкция религиозной мысли в исламе*. Москва: Садра, 200 с.
11. Неру, Дж. (1989). *Открытие Индии* (II томах, В. В. Исакович & И. С. Кливанская, Пер. с англ.). Москва: Политиздат, 464 с.
12. Комаров, Э., Ламшуков, В., & Полонская, Л. (Ред.). (1987). *Открытие Индии: Философские и эстетические воззрения в Индии XX века*. Москва: Художественная литература, 611 с.
13. Степанянц, М. Т. (Ред.). (2001). *Универсалии восточных культур*. Москва: Восточная литература, 431 с.
14. Степанянц, М. Т. (Ред.). (1985). *Философия и религия на Зарубежном Востоке. XX век*. Москва: Наука, 272 с.